"Effektiv Təşəbbüslər Mərkəzi"
demokratik dəyərlərin öyrənilməsi və
təbliği İctimai Birliyi

AZ1065 Azərbaycan, Bakı, Tağı Şahbazi küç. 101
Tel: (+994 50) 340 33 64; (+994 70) 718 33 02
info@azerbaycanli.org; www.azerbaycanli.org

"The Centre of Effective Initiatives"
Public Association of the Study and
Popularization of Democratic Values

AZ1065, 101 Taghi Shahbazi str., Baku, Azerbaijan
Phone: (+994 50) 340 33 64; (+994 70) 718 33 02
info@azerbaycanli.org; www.azerbaycanli.org

№ M-1

"19" mart 2021

**Birləşmiş Millətlər Elm, Təhsil**
**və Mədəniyyət Təşkilatının**
**(UNESCO) Baş Direktoru**
**xanım Odri Azuleyə**

**Hörmətli xanım Baş Direktor!**

Çoxsahəli Azərbaycan sənətkarlığı zəngin inkişaf yolu keçib. Onun maraqlı və təkrarsız sahələrindən biri də sədəf sənətidir. Sədəf sənəti əsrlər boyu Azərbaycan milli mədəniyyətinə kifayət qədər xidmət etmişdir. Azərbaycan sənətkarlıq növləri arasında sədəf sənətinin rolu olduqca böyük olmuşdur. Hazırda sədəf sənətinin qorunub-saxlanılması, onun təbliği və gələcək nəslə ötürülməsi ilə bir çox fərdi sənətkarlar məşğuldur.

Sədəf sənəti Azərbaycanın çoxəsrlik sənətkarlıq tarixinin ən maraqlı səhifələrindən biridir. Orta əsrlərdə Azərbaycan sənətkarları yaradıcılıq fantaziyasının zənginliyi ilə indi də bizi heyran edən və onu yaradan xalqın bədii mədəniyyətinin qədimliyini, çoxcəhətliyini, özünəməxsusluğunu sübut edən çoxsaylı memarlıq, təsviri və dekorativ sənət əsərləri yaratmışlar və onların çoxu ölkə sənətkarlığının qızıl fonduna daxil olmuşdur. Sədəf sənəti mədəniyyətimizin, milli adət-ənənələrimizin, sənətkarlığımızın tərkib hissəsidir.

Hesab edirik ki, sədəf sənətinin UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi irs Reprezentativ siyahısına alınması bu elementin çoxlu daşıyıcılarında böyük rəğbət hissi oyadacaq. Bu mənada təşkilatımız sədəf sənətinin həmin siyahıya Azərbaycan və Türkiyə tərəfindən təqdim edilməsini alqışlayır və UNESCO tərəfindən bu nominasiyanı dəstəkləməyə çağırır.

**Hörmətlə,**

**"Effektiv Təşəbbüslər Mərkəzi" İB-nin direktoru** **Xanlar Məmmədov**

Director-General of the United
Nations Educational, Scientific and
Cultural Organization (UNESCO),

Mrs. Audrey Azoulay

Dear Mrs Director- General,

Azerbaijan's multifaceted traditional crafts have undergone rich development. One of its interesting and unique types is the art of mother of pearl inlay. Sustained by communities, this art has contributed to the culture of Azerbaijan for centuries. The role of the art of mother of pearl inlay among the traditional crafts of Azerbaijan has been significant. At present, multiple craftspeople of the art of mother of pearl inlay, individuals, continue safeguarding the element, promoting it and transmitting to the next generation.

The art of mother of pearl inlay is one of the most interesting parts of the centuries-old history of traditional crafts. In the Middle Ages, Azerbaijani masters have created numerous works using the mother of pearl inlay in architecture, fine and decorative arts, thus expressing the uniqueness and originality of this artistic culture of the masters themselves, who still amaze us and enrich us with the wealth of their creative imagination. Many of their works are remembered and appreciated by communities in our country. The art of mother of pearl inlay is an integral part of our culture, national traditions and craftsmanship.

We believe that the inclusion of the art of mother of pearl inlay in the UNESCO Representative List of the Intangible Heritage of Humanity will support the efforts of the bearers of this element. In this sense, our organization and craftspeople welcome the proposal from Azerbaijan and Turkey to include the art of mother of pearl inlay in this list and calls on UNESCO to support this nomination.

Sincerely yours,

Khanlar Mammadov, Effektiv Teshebbusler Public Union, Chairperson

# "OBYEKTİV"

## Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyi

AZ 1111, Bakı şəhəri,
Nəsimi rayonu, Cavadxan küç. ev 68, mənz. 43

Tel: +994 50 316 54 48
e-mail: mubariz-askerov@mail.ru

"25" mart 2021 -ci il № 111

**Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş
Millətlər Təşkilatının (UNESCO) Baş
Direktoru, xanım Odri Azuleyə**

**Hörmətli xanım Azuley,**

**Azərbaycanda sədəf sənəti mədəniyyətimizin ən mühüm və zəngin səhifələrindən biridir. Əsrlər boyu sədəf sənətkarları çoxlu zəngin, özünəməxsus sənət əsərlərini yaratmışlar. Müasir dövrümüzdə isə Azərbaycanda sədəf sənəti yenə də davam etdirilir. Bu ənənələrə sadiq qalan bir çox sənətkarlarımız var və biz birlikdə bu sənəti yaşatmağa çalışırıq. Hesab edirik ki, bu ənənəvi sənətin ölkəmizdə böyük gələcəyi vardır.**

**Azərbaycanda sədəf sənəti mədəni identikliyin tərkib hissəsi kimi qəbul edilir. Sədəf sənəti keçmişdən günümüzə qədər mədəni əlaqələri gücləndirir. Hər bir sədəf işinin əsəri mədəni yaddaşın canlılığını təmin edir. Azərbaycanda sədəf sənətkarları ənənəvi xüsusi estetika və kompozisiya meyarlarına əsasən çoxlu şedevrləri yaratmış və yaratmağa davam edirlər. Sənətkarlar öz əsərlərində elementlərin harmoniyasını təmin edirlər.**

**Hesab edirik ki, sədəf sənəti mədəniyyətimizin, milli adət-ənənələrimizin tərkib hissəsidir. Məhz buna görə təşkilatımız sədəf sənətinin YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına çoxmillətli element kimi təqdim edilməsini tamamilə dəstəkləyir və YUNESKO tərəfindən bu elementinHesab edirik ki, sədəf sənəti mədəniyyətimizin, milli adət-ənənələrimizin tərkib hissəsidir. Məhz buna görə təşkilatımız sədəf sənətinin YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına çoxmillətli element kimi təqdim edilməsini tamamilə dəstəkləyir və YUNESKO tərəfindən bu elementin tanıdılmasında köməklik göstərməyiniz xahiş edirik. Inanırıq ki, bu addımla bu qədim sənət növünə ictimai maraq bundan sonra daha da artacaq, onun gənc nəsillərə ötürülməsinə təkan veriləcəkdir.**

**Hörmətlə, Mübariz Əsgərov**

**"Obyektiv" Milli dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin sədri, əməkdar jurnalist**

Azərbaycan Respublikası İctimai Birlik "Obyektiv" milli dəyərlərin təbliğinə dəstək Public Union Azerbaijan Republic

Ms Audrey Azoulay,

Director-General of the United
Nations Educational, Scientific and
Cultural Organization (UNESCO)

Dear Mrs. Azoulay,

The art of mother of pearl inlay in Azerbaijan has been one of the most important and rich pages of our culture. Over the centuries, masters of mother of pearl inlay have created many rich and unique works of this traditional craft. Even today, the art of mother of pearl inlay continues to live in Azerbaijan. We have many craftspeople, who are committed to safeguarding and transmitting these traditions, and together we try to keep this art alive. We believe that this traditional art has a great future in our country.

The art of mother of pearl is considered by practitioners as a part of cultural identity. This art strengthens cultural ties between the past to the present. The work of each practitioner provides the vitality of the cultural memory of the whole community. The masters of mother of pearl inlay in Azerbaijan have created and continue to create many masterpieces based on traditional aesthetics and composition criteria. In their works, the masters ensure the harmony of all elements.

We believe that the art of mother of pearl inlay is an integral part of our culture and national traditions. That is why our organization fully supports the inclusion of the art of mother of pearl inlay pearl art in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity as a multinational element, and we ask you to assist in the promotion of this element by UNESCO. We consider that this inscription will stimulate further the public interest to this ancient craft and support the transmission of the element to the young generations.

Sincerely yours,

Mubariz Asgerov

Chairperson of ‘Obyektiv’ Public Union for Promotion and Support to Cultural Values

# "Aşıq Pəri Məclisi" Ozan Sənətinin Təbliği İctimai Birliyi

Ün: Bakı şəhəri ,Tiblisi prospekti,ev96,m.35 mob: (+99450)3936321/(+99451)6225113 e-mail: asiqperimeclisi@gmail.com

**№ 03/21** **25 mart 2021-ci il**

**Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatının (UNESCO) Baş Direktoru, xanım Odri Azuleyə**

**Hörmətli xanım Azuley,**

**Orta əsrlər dövrü Azərbaycanın bir sıra bölgələrində bir çox sənət sahələri inkişaf etmiş və burada müxtəlif sənətkarların cəm olduğu sənətkarlıq mərkəzləri yaradılmışdır. Azərbaycan ustalarının hazırladıqları sənətkarlıq məmulatları demək olar ki, Yaxın Şərqdə özünəməxsus yer tutmuş və şöhrət tapmışdır.**

**Sədəf sənəti Azərbaycan sənətkarlığının inkişafında mühüm rol oynamışdır. Azərbaycanda qədimdən məlum olan bu sənət növü ustalar sayəsində bu gün də yaşadılmaqdadır. Sədəf sənəti əşyaların bəzədilməsində, onlara estetik görkəm verilməsində istifadə olunur. Mücrü, qələmdan, güzgü, nərdtaxta, rəhil hazırlanma prosesində sədəf sənətinin nümunələrinə rast gəlmək olar.**

**Bununla yanaşı qeyd edilməlidir ki, Azərbaycanın milli musiqi alətlərinin hazırlanmasında sədəfçiliyin xüsusi rolu vardır. Bu işlə məşqul olan sənətkarların, o cümlədən tanınmış sazbəndlərin bir çoxu öncül sədəf ustalarıdır və onların alətlər üzərində yaratdıqları sədəf kompozisiyalarında rəssamlıqla zərgərlik biri-birini tamamlayır.**

**Hesab edirik ki, sədəf sənəti Azərbaycanda yaşayan icmaların mədəniyyətində mühüm rol oynayır. Bununla əlaqədar bu vacib elementin UNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına Azərbaycan və Türkiyə adından daxil edilməsini dəstəkləyir və UNESKO-dan bu təşəbbüsə müsbət rəy verilməsini xahiş edirik.**

**Hörmətlə,**

**"Aşıq Pəri Məclisi" Ozan Sənətinin Təbliği İctimai Birliyinin sədri**

**Pərvanə Mustafayeva**

Ms Audrey Azoulay,

Director- General of the United
Nations Educational, Scientific and
Cultural Organization (UNESCO)

Dear Mrs. Azoulay,

During the Middle Ages, many fields of traditional crafts were developed in a number of regions of Azerbaijan and numerous craftspeople have established here their craft centers. The heritage of traditional crafts maintained by Azerbaijani masters has gained a special place and fame in the Middle East culture.

The art of mother of pearl inlay has played a special role in the development of traditional crafts. This type of traditional craft, which has been known in Azerbaijan for a long time, is still alive today thanks to masters. The art of mother of pearl inlay is used to decorate objects and give them highly aesthetic appearance. Our craftspeople of mother of pearl inlay decorate objects such as pens, boxes, mirrors, backgammon boards, and others.

We would also like to note that the art of mother of pearl inlay also plays an important role in crafting of musical instruments. The craftspeople involved in this work are excellent masters of mother of pearl inlay and the compositions they create while inlaying is a mixture of arts and jewelry.

We believe that the art of mother of pearl inlay plays an important role in the culture of communities living in Azerbaijan. In this regard, we support the inclusion of this important element in the UNESCO Representative List of Intangible Cultural Heritage on behalf of Azerbaijan and Turkey and ask UNESCO to give positive feedback on this initiative.

Sincerely yours,

Ms Pervane Mustafayeva, Chairperson, Ashiq Peri Majlisi Public Union

**Azərbaycan Respublikası**

***Gənclər üçün Təhsil Mərkəzi***

**G T M**

**Azerbaijan Republic**

***Educational Center for Youth***

*Bakı şəhəri, AZ 1141, Ş.Mehdiyev 93, 9-cu mərtəbə*

*9th floor, 93 Sh.Mehdiyev, AZ 1141, Baku city*

*Telefon: (+994 55) 561 59 61*

*info@gtm.az www.gtm.az*

129/12-5 12.03.2021

Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatının (UNESCO) Baş Direktoru,

xanım Odri Azuleyə

Hörmətli xanım Baş Direktor,

Sədəf sənəti əsrlər boyu Azərbaycan mədəniyyətinin ən zəngin və maraqlı sənət növlərindən biri olmuşdur. Hal-hazırda da bu sənət növünə sadiq qalan bir çox sənətkarlarımız bu sənətinin qorunub-saxlanılması, onun təbliği və gələcək nəslə ötürülməsi ilə məşğuldur.

Sədəf sənəti xatəmkarlıq (inkrustasiya) dekorativ-tətbiqi sənətin özünə məxsus bir növü olmaqla əşyaların bəzədilməsində, onlara estetik görkəm verilməsində istifadə olunur. Bu prosesdə hər hansı səthə əlavə olunan – oyulub yerləşdirilən naxış və təsvirlər sədəf və digər materialdan olmaqla rənginə, digər xüsusiyyətlərinə görə fərqlənir. Azərbaycanda lap qədimdən məlum olan bu sənət növü bu gün də yaşadılmaqdadır. Xatəmkarlığın bədii-texniki imkanlarını özündə ifadə edən mücrü, qələmdan, güzgü, nərdtaxta, rəhil, eləcə də musiqi alətləri bu qəbildəndir.

Sədəf sənəti Azərbaycanda yaşayan icmaların mədəniyyətində, sənətkarların həyatında mühüm rol oynayır. Bununla əlaqədar olaraq təşkilatımız sədəf sənətinin UNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına Azərbaycan və Türkiyə tərəfindən daxil edilməsini dəstəkləyir. Inanırıq ki, bu addımla bu elementə ictimai maraq bundan sonra daha da artacaq, onun gənc nəsillərə ötürülməsinə təkan veriləcəkdir.

**Hörmətlə**

**İcraçı direktor** **Fəxrəddin Həsənzadə**

Gənclər üçün Təhsil Mərkəzi • Educational Center for Youth • GTM

Сканировано с CamScanner

Director-General of the United
Nations Educational, Scientific and
Cultural Organization (UNESCO),

Mrs. Audrey Azoulay

Dear Mrs. Director- General,

The art of mother of pearl inlay has been one of the richest and most interesting arts in the culture of Azerbaijani communities for centuries. Currently, a number of craftspeople in our country remain faithful to safeguarding and promoting this art, as well as transmitting this heritage to the next generation.

The craft of mother of pearl inlay is an inherent form of decorative-applied art. Communities use the craft to decorate objects and give them an aesthetic appearance. Masters add patterns and drawings before inlaying the mother of pearl on the surface, which differ in color and other characteristics. This type of art, which has been known in Azerbaijan for a long time, is still alive today. Using different techniques of incrustation, craftspeople decorate objects like backgammon boards, boxes, mirrors, and musical instruments, through which masters express their artistic and technical capacities.

The art of mother of pearl inlay plays an important role in the culture of the communities living in Azerbaijan, in the lives of the masters. In this regard, our organization supports the inscription of the art of mother of pearl inlay in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity by Azerbaijan and Turkey. We believe that this step will further increase the interest in this element and contribute to its transmission to the next generation.

Sincerely yours,

Fahraddin Hasanzade,

Director of Education Center for Youth Non-governmental Organization

Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş
Millətlər Təşkilatının (UNESCO) Baş
Direktoru, xanım Odri Azuleyə

Hörmətli xanım Azuley,

Sədəf sənəti və rəmzlərinin daşıyıcıları xalq sənətkarlarıdır. Sədəf sənəti Azərbaycan sənətkarlığının ən qədim sahələrindən biri olub və bu günə qədər öz əhəmiyyətini saxlamışdır. Hazırda sədəf sənətinin qorunub-saxlanılması, onun təbliği və gələcək nəslə ötürülməsi ilə bir çox fərdi sənətkarlar və təşkilatlar məşğuldur.

Bu sənətin qədim tarixə malik olmasını və onun yerli zəmində inkişaf edərək yüksəlməsini ölkəmizə müxtəlif dövrlərdə təşrif buyurmuş əcnəbi qonaqlar və səyyahlar öz yazılarında qeyd etmişlər. Tarix boyu ənənəvi olaraq bir neçə coğrafi məkanda təşəkkül tapan bu sənət növü bütün Azərbaycan xalqı tərəfindən zaman boyu sevilmiş və indinin özündə də sevilməkdədir. Sədəf sənəti yetərincə mürəkkəb bir proses olaraq, müəyyən bir icma halında birləşən ustaların və əsrlər boyu nəsildən nəslə şifahi tərzdə ötürülən biliklərin məhsuludur. Bu biliklər aramsız olaraq sədəf sənətkarları sülalələri hesabına davam etdirilir və yaşadılır.

Sədəf sənəti sənətkarlığımızın tərkib hissəsidir və Azərbaycan mədəniyyətində mühüm rol oynayır. Hesab edirik ki, sədəf sənətinin UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi irs Reprezentativ siyahısına alınması bu elementin çoxlu daşıyıcılarında böyük stimul verəcək. Bu mənada sədəf sənətinin həmin siyahıya Azərbaycan və Türkiyə tərəfindən təqdim edilməsini alqışlayır və UNESKO tərəfindən bu nominasiyanı dəstəkləməyə çağırıram.

Hörmətlə,

Salam-zadə Aynur

İnkrustasiya və sədəf üzərində iş

Ms Audrey Azoulay, Director-
General of the United Nations
Educational, Scientific and
Cultural Organization (UNESCO)

Dear Mrs. Azoulay,

The bearers of the art of mother in pearl inlay and its symbols are indeed masters of people. The art of mother in pearl inlay has been of the oldest types of Azerbaijani traditional crafts and has remained important for communities to this day. At present, a number of craftspeople and organizations are involved in safeguarding, promotion and transmission of this art to the next generation.

Multiple foreign guests and travelers who have visited our country at different periods of history have noted in their writings that this heritage has been quite developed, which points to the rich history of this art on the local level. This type of crafts, which has traditionally been formed in several geographical areas throughout history, has been appreciated by all the people of Azerbaijan for a long time and is still loved today. The art of mother in pearl inlay, being rather a complex process and requiring a lot of skills, is the result of the work of the masters united in a certain community, where knowledge has been passed down orally from generation to generation for centuries. This knowledge is constantly maintained and safeguarded thanks to the families of the art of mother in pearl inlay craftspeople.

The art of mother in pearl inlay is an integral part of our heritage and plays an important role in the Azerbaijani culture. I believe that the inclusion of the art of mother in pearl inlay in the UNESCO Representative List of the Intangible Heritage of Humanity will echo the aspirations of community members and encourage them to safeguard the element. In this sense, I welcome the proposal to submit the art of mother in pearl inlay to this list on behalf of Azerbaijan and Turkey and call on UNESCO to support this nomination.

Sincerely yours,

Aynur Salamzade, master of mother of pearl inlay

Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş
Millətlər Təşkilatının (UNESCO) Baş
Direktoru,

xanım Odri Azuleyə

Hörmətli xanım Baş Direktor,

Hər bir xalqın tarixi yaratdığı sənətkarlıq nümunələrində öz əksini tapır. Azərbaycan mədəniyyətinin bir sahəsi olan sənətkarlığın artan rolu son illər bu sahəyə olan marağı artırıb. Xüsusilə bu sahə üzrə Azərbaycan Respublikasının vergi qanunvericiliyində ustalar və aidiyyəti icmalar üçün bir sıra güzəştlər mövcuddur: sənətkarlıq sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəlirləri gəlir vergisindən azaddır.

Azərbaycanda sədəf sənəti sənətkarlığın ən mühüm və zəngin sahələrindən biridir. Əsrlər boyu sədəf sənətkarları çoxlu zəngin, özünə məxsus sənət əsərlərini yaratmışlar. Hal-hazırda da Azərbaycanda sədəf sənəti yenə də davam etdirilir, yaşadılır və nəsildən nəslə ötürülür. Sədəf sənəti mədəniyyətimizin, milli adət-ənənələrimizin, sənətkarlığımızın tərkib hissəsidir.

Bununla əlaqədar sədəf sənətinin sənətkarlar üçün əhəmiyyətini nəzərə alaraq, bu elementin Türkiyə və Azərbaycan tərəfindən UNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilməsini dəstəkləyir və UNESKO-dan bu təşəbbüsə müsbət rəy verilməsini xahiş edirəm.

Hörmətlə,

Cəfərov Fəxrəddin

Zərgər və Sədəf sənəti üzrə usta

Director-General of the United Nations
Educational, Scientific and Cultural
Organization (UNESCO),

Mrs. Audrey Azoulay

Dear Mrs. Director-General,

The history of each nation is reflected in the examples of its craftsmanship. In the recent years, the interest and attention to craftsmanship have grown, as an indispensable part of the Azerbaijani culture. In particular, the tax legislation now foresees privileges for craftspeople and relevant communities: masters working in the field of craftsmanship are now exempt from income tax.

The art of mother in pearl inlay is one of the most important and rich aspects of traditional crafts in Azerbaijan. Over the centuries, the masters of the mother in pearl inlay have created many rich, unique works of craft. Even today, communities continue to keep alive the art of mother in pearl inlay and passed it down from generation to generation. The art of mother in pearl inlay is an integral part of our culture, cultural traditions and the whole domain of craftsmanship.

In this regard, considering the importance of the art of mother in pearl inlay for communities, I fully support the inclusion of the element on behalf of Azerbaijan and Turkey on the UNESCO Representative List of Intangible Cultural Heritage and kindly ask to support this initiative.

Sincerely yours,

Fahraddin Jafarov,

Master of the art of mother of pearl inlay